

■ Rövşən BUDAQ

## GÜNƏŞİN ÖVLADI

Tanrı bu cahanı gözəl yaradıb,
İblis viranələr salana qədər.
Adəmi bəşərdən əzəl yaradıb,
Şeytanlar qəlblərə dolana gedər.

Yaradan xəlq edib qədim elləri,
Hər xalqa, millətə mənsub dilləri.
Bəxş edib bəşərə sevgi telləri,
Qanlı qiyamətlər olana qədər.

Ərimir dünyanın Şimal buzları,
Ovdadı kafirin Qərb quduzları,
Mazuta bulaşır səhra tozları,
Üzlərdə ləkələr qalana qədər.

Fələyin əliylə bulanır sular,
Tutulur bərələr, çatılır qollar.
İmanlı üzlərə bağlanır yollar
Atılır qaranlıq dalana qədər.

Bürüyüb aləmi atom azarı,
Talanır Palmira, Assur diyarı.
Nəsiminin qərib, əsir məzarı,
Dağılıb Hələbdə talana qədər.

Fironlar hökm edir, baxmır fəryada,
Günahsız uşaqlar batır dəryada.
Haqdan dəm vuranlar yetmir imdada,
Analar saçını yolana qədər.

Günəşin övladı şərq cocuqları
Yurdundan qovulur qürbətə sarı.
Əsrin qəm karvanı, ərəb baharı
Köç edir doğrudan yalana qədər.

Analar əsirdi, atalar kölə,
Körpələr doğulur, ölürlər belə,
Alovlar içində dönürlər külə,
Son ümid işığı solana qədər.

Siz ey bu dünyanı topa tutanlar,
Fitnələr törədib, sərvət satanlar,
Lənətə gələcək ara qatanlar?
Cəhənnəm əzabı alana qədər,
Həqiqət qələbə çalana qədər.

## ƏLLİ İLİN ADAMI

*Əlli yaşıma*

Əlli ildə bu qədər
Həyat eşqim nədəymiş?
Göydən gələn istəyim
Doğulduğum yerdəymiş.

Bu cahanda nə gördüm,
Nə aldım de, nə verdim?
Yenə göynədi dərdim,
Günahkar vaxt-vədəymiş.

İlk eşqim ilham pərim,
Qarabağ dərdi-sərim,
Ən görümlü əsərim,
Yağılara hədəymiş.

Qəlbim sözlərə zahı,
Doğdu sübhün sabahı,
Allahın söz dərgahı
Kərbəlaymış, Kəbəymiş.

Nurdan alıb sevdamı,
Bəzədim söz odamı.
Əlli ilin adamı
Min ildi səfərdəymiş.

## SEVGİ DƏRSİ

Gəl-gəl ilham pərisi
Susmuş təbimi dindir
Gəl Tanrının haqq səsi
Ürəyimi sevindir.

Gəl ruhumu təzələ,
Yanan köksümü soyut.
Şeirlərlə, qəzəllə,
Nəğmənlə, məni ovut.

Oxşa duyğularımı,
Dinlə hicran səsimi.
Dindir könül tarımı,
Oyat eşq atəşimi.

Gəl qəlbimə nur çilə,
Ərit donmuş buzları.
Yoluma işıq ələ -
Seyr edim ulduzları.

Gəl-gəl ilham pərisi
Hisslərimə zövq gətir.
Ver mənə sevgi dərsi -
Söz qoşum sətir-sətir
Sözlərim saçsın ətir.

## BU BƏŞƏR SINAĞI HAQQA QƏDƏRDİ

Nakam taleyini yazdı Yaradan,
Bu cavan ömrünü üzdü yarıdan,
Hicran dəryasını çəkdin aradan,
Əbədi dünyanı seçib, ayrıldın.

Demə ki bu cahan heçdi, hədərdi,
Bu bəşər sınağı haqqa qədərdi,
Ananın göz yaşın, atanın dərdin,
Əcəl şərbətitək içib ayrıldın.

Həsrətdən gözlərin dönmüşdü qana,
Bu halın qəlbini gətirdi cana,
Əlvida söylədin nə tez cahana,
Haqqın dərgahına köçüb, ayrıldın.

## ULU ŞAİR

Şeir qəlbə butadı,
O bir sirli Xudadı,
Haqdan gələn sevdadı,
Qəlbimizə nur verir.

Şair haqdan təb alır,
Dərs alır, ədəb alır,
Xudadan mətləb alır,
Qəlbimizə nur verir.

İnci düzür tellərə,
Aşiq olur güllərə,
Nəğmə qoşur ellərə,
Qəlbimizə nur verir.

Zər götürür dəryadan,
Ruh alır nazlı yardan.
Sevə-sevə yaradan
Qəlbimizə nur verir.

Yaz gətirir qış üstə,
Gül bitirir daş üstə,
Söz əkir daş-qaş üstə,
Qəlbimizə nur verir.

Ən ulu şair odur,
Ruhumuzu ovudur
Ürəklərə od vurur,
Kəhkəşanda söz dərir
Qəlbimizə nur verir.

## GECƏNİN RƏNGİ

Bakının gecələri
Necə möhtəşəm olur.
Hər yan əlvan işıqlı,
Ürəklərə nur dolur.

Canlanır Sahil bağı -
Cavanlar nə bəxtəvər.
Sanki baxıb sevinir,
Mehriban ana Xəzər.

Yenə sevdalı gözlər
Sevincdən parıldayır.
Gülümsəyən ləpələr
Sevgisin pıçıldayır.

Sevgilim heyran olub
Bu sehrli aləmə.
Əllərini uzadıb,
Toxunur əllərimə.

Xəfif gilavar mehi
Tellərini darayır.
Gecənin dəniz şehi
Ayağını yalayır.

Oxşayır qəlbimizi
Dənizin xoş nəfəsi.
Yayılır həzin-həzin
Sahildə şeir səsi.

Bu isti yay gecəsi
Könüllər nəğmə istər.
Batıb Ay işığına
Dənizin rəngi əsmər.

